Azərbaycan.- 2020.-30 dekabr. S. 1; 38.

# Pozitiv tendensiyanı qoruyub saxlamalıyıq

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan edilən COVID-19 infeksiyası Yer üzündə yoluxma hallarının sayını sürətlə artırmaqda davam edir. Artıq dünyada bu təhlükəli virusa yoluxanların sayı 81 milyonu ötüb.

Təəssüf ki, ötən müddət ərzində koronavirus infeksiyasının qarşısının alınması istiqamətində görülən bütün tədbirlər nəticəsiz qalıb. COVID-ə qarşı ən effektiv mübarizə üsulu olan karantin rejiminin isə dünya iqtisadiyyatına ağır zərbə vurması daha bir təhlükəyə yol açıb. Buna görə də dünyanın beyin mərkəzləri gecə-gündüz pandemiyadan çıxış yolları arayır, ona qarşı təsir vasitələri axtarırlar. Mütəxəssislər isə bildirirlər ki, koronavirusun vaksini belə infeksiyanı tam aradan qaldırmağa qadir deyil və insanlar hələ bir müddət pandemiya şərtləri ilə yaşamalı olacaqlar.



## Ölkəmiz ümumi bəlaya qarşı mübarizə üzrə operativ tədbirlər görür

Azərbaycan qlobal bəlaya qarşı hərtərəfli mübarizəni davam etdirir. Hələ virusun ilk üzə çıxdığı və təhlükənin ölkəmizin sərhədlərindən xeyli uzaqda olduğu zamandan etibarən hökumət problemin ciddiliyini və ÜST-ün tövsiyələrini nəzərə alaraq sərhədlərini qapadı, bütün təhsil müəssisələrini bağladı, kütləvi tədbirləri, idman yarışlarını təxirə saldı.

*Ardı 38-ci səh.*






# Pozitiv tendensiyanı qoruyub saxlamalıyıq

*Əvvəli 1-ci səh.*

Virusun kütləvi yayılmasının qarşısını almaq, vətəndaşların təhlükəsizliyini təmin etmək məqsədilə lazımi tədbirlər vaxtında həyata keçirilməyə başlanıldı. Qısa zamanda səhiyyə infrastrukturunun koronavirusla mübarizəyə istiqamətləndirilməsi pandemiyanın mümkün fəsadlarını minimuma endirdi.

Qısa zamanda 20-dən artıq xəstəxana, o cümlədən ən müasir standartlara cavab verən "Yeni klinika" koronavirus xəstələrinin ixtiyarına verildi, paytaxt və regionlarda xüsusi rejimli xəstəxanalar və karantin zonaları yaradıldı.

Dövlət başçısı İlham Əliyevin tapşırığına əsasən, pandemiyanın qarşısının alınması, əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilən önləyici kompleks tədbirlər çərçivəsində bölgələri də əhatə etməklə ölkə ərazisində modul tipli xəstəxanalar quraşdırıldı. Koronavirus pandemiyası ilə mübarizə çərçivəsində modul tipli xəstəxanaların yaradılması olduqca mühüm əhəmiyyət kəsb etdi.

Dekabrın 18-də Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışında bildirdi ki, Azərbaycan



həm ölkə daxilində, həm də beynəlxalq arenada bu ümumi bəlaya qarşı mübarizə üzrə operativ tədbirlər görüb. Prezident məlumat verdi ki, qısa müddətdə ölkəmizdə laboratoriyaların sayı praktiki olaraq 8 dəfə artırılıb, 10-dan çox yeni müasir xəstəxana, o cümlədən modul tipli xəstəxana tikilib: "Beləliklə biz COVID xəstələri üçün 10 mindən çox çarpayı təqdim etmişik. Həkimlərin çatışmaması da ümumi problem idi, çünki heç bir səhiyyə sistemində xəstələrin sayının bu qədər olacağı nəzərdə tutulmamışdı. Biz həmkar ölkələrlə operativ danışıqlar apararaq 5 ölkədən - İtaliya, Çin, Kuba, Rusiya və Türkiyədən həkimləri dəvət etdik. Bu, xəstələrin müalicə olunmasında bizə xeyli dərəcədə kömək etdi".

## Zərərçəkmiş kateqoriyalardan olan vətəndaşlara maliyyə dəstəyi göstərilir

Karantin rejimi tətbiq olunandan vətəndaşlarımıza diqqət və qayğı göstərilir, maddi yardımlar edilir. Pandemiyadan zərər çəkən sahələrə dəstək göstərilir.

Ümumiyyətlə, pandemiyaya qarşı mübarizə, habelə zərərçəkmiş kateqoriyalardan olan vətəndaşlara maliyyə dəstəyi göstərilməsi üçün dövlət büdcəsindən təqribən 2,5 milyard dollar məbləğində vəsait ayrılıb. Maliyyə dəstəyi tədbirləri Azərbaycanın beş milyona yaxın vətəndaşını əhatə edib.

Ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, xəstəliyin qarşısını almaq üçün hökumətlər sərt məhdudiyyətlər tətbiq etmək məcburiyyətində qalırlar. Bu, iqtisadi duruma, əhalinin maddi vəziyyətinə mənfi təsir göstərsə də, insanların həyatının və təhlükəsizliyinin qorunması üçün karantin rejiminin sərtləşdirilməsi istiqamətində müəyyən addımlar atılır.

Bütün dünyada olduğu kimi, son aylar Azərbaycanda da COVID-19-a yoluxma halında artım müşahidə olunurdu. Odur ki, virusun yayılmasının qarşısının alınması məqsədilə bir sıra addımlar atıldı və Nazirlər Kabineti yanında Operativ Qərargah ölkə üzrə xüsusi karantin rejimini yanvarın 31-dək uzatdı. Yanvarın 18-dək isə bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilib.

Artıq respublikamızda görülən kompleks tədbirlər sayəsində son günlər koronavirusa yoluxma sayında müsbət tendensiya müşahidə olunur. Belə ki, xəstəlikdən sağalanların sayı gündəlik yoluxanların sayını üstələyir.

Amma mütəxəssislər koronavirusla bağlı statistik göstəricilərdə müsbət dinamikanın olmasının arxayınçılıq yaratmaması barədə xəbərdarlıq edirlər. Bildirirlər ki, COVID-19-u digər virus infeksiyalarından daha təhlükəli edən onun sürətli yoluxuculuq qabiliyyətinin olmasıdır. Buna görə də hətta yoluxma sayı birrəqəmli həddə düşsə belə ehtiyatı əldən vermək olmaz və daim tədbirli davranmaq lazımdır ki, infeksiya yenidən alovlanıb yoluxanların sayını artırmasın.

## İş icazələrindən sui-istifadə edənlər məsuliyyətə cəlb olunacaqlar

Daxili İşlər Nazirliyi də vətəndaşların karantin rejiminin tələblərinə daha məsuliyyətlə yanaşması ilə bağlı xəbərdarlıq edib.

Məlumat verilib ki, koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə ölkənin bəzi şəhər və rayonlarında tətbiq edilmiş sərtləşdirilmiş xüsusi karantin rejimi ilə əlaqədar həmin inzibati ərazilərə giriş-çıxış yalnız müvafiq ezamiyyə vərəqələri və ya "icaze.e-gov.az" portalına daxil edilmiş məlumatlar əsasında həyata keçirildiyindən son vaxtlar xüsusilə Bakı, Sumqayıt şəhərlərinin və Abşeron rayonunun ərazisində yaşayan və işləyən şəxslərin kütləvi şəkildə ailə üzvləri ilə birgə məhz həftəsonu və ya bayramqabağı ezamiyyə adı ilə respublikanın ayrı-ayrı bölgələrindəki istirahət zonalarına getmələri müşahidə olunur.

Məlumatda vurğulanıb ki, verilən icazədən sui-istifadə hallarının qarşısının alınması məqsədilə bir daha nəzərə çatdırırıq ki, həftənin şənbə və bazar, habelə bayram günləri xüsusi karantin rejimi tətbiq edilmiş inzibati ərazilərə giriş və ya çıxış etməyə cəhd edənlər karantin postlarından buraxılmayacaqlar.

DİN vətəndaşları xəbərdar edir ki, sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq olunan şəhər və rayonların inzibati ərazilərində, o cümlədən istirahət mərkəzlərində polis və daxili qoşunların hərbi qulluqçuları tərəfindən mütəmadi reydlər keçiriləcək və bu zaman iş icazələrindən sui-istifadə edərək istirahət mərkəzlərində olan şəxslər aşkarlandığı təqdirdə belə icazələr ləğv ediləcək, habelə onlar qanunvericiliyə uyğun olaraq məsuliyyətə cəlb olunacaqlar.

Dövlətin pandemiyaya qarşı həyata keçirdiyi kompleks tədbirlər vətəndaşların təhlükəsizliyinin etibarlı təmin edilməsi, əhalinin sağlamlığının qorunması məqsədilə həyata keçirilir. Biz də vətəndaş məsuliyyəti göstərərək qoyulan qaydalara ciddi riayət etməli və pandemiya ilə mübarizəyə öz töhfəmizi verməliyik.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***